içti

**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

№ 106 "16" İyun 2023-cü il

**Binəqədi rayonu Novxanı, Goradil və Fatmai dəniz çimərliklərində əhalinin 2023-cü ildə yay istirahətinin təşkili haqqında**

Bakı Şəhər İcra Hakimiyyəti başçısının 19.05.2023-cü il tarixli 92 saylı Sərəncamının icrasını təmin etmək məqsədilə, "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndinə əsaslanaraq

**q ə r a r a  a l ı r a m:**

1. Bakı Şəhər İcra Hakimiyyəti başçısının 19.05.2023-cü il tarixli 92 saylı Sərəncamının icrası ilə əlaqədar Binəqədi rayonu Novxanı, Goradil və Fatmai dəniz çimərliklərində əhalinin 2023-cü ildə istirahətinin təşkili üzrə Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur);
2. Tədbirlər Planında nəzərdə tutulmuş işlərin icrası məqsədilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Hacıbaba Babayevə, Aparatın şöbə müdirləri İskəndər Cahangir-zadə, Rauf Həsənov, Azər Kərimov, Nicat Allahverdiyev və şöbə müdiri vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən Vüsalə Eyvazovaya tapşırılsın ki, nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsini təmin etsinlər;
3. Sərəncamın icrasına nəzarət Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Hacıbaba Babayevə həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 16.06.2023 tarixli, 106 saylı sərəncamı ilə təsdiq edilmişdir

**Binəqədi rayonu Novxanı, Goradil və Fatmai dəniz çimərliklərində əhalinin 2023-cü il yay istirahətinin təşkili üzrə**

**Tədbirlər planı**
**(15.06.2023-01.09.2023)**

| Sıra № | Tədbirin adı | Ünvan | İcraçılar | İcra müddəti | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | Sahilyanı ərazinin məişət tullantılarından təmizlənərək torpaqların şumlanması işləri | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri- A.Kərimov;<br>Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri –R.Həsənov;<br>Binəqədi Rayon Bələdiyyəsinin sədri – M.Eminov;<br>Binəqədi Rayon MKTB-nin rəisi-E.Zamanov | **Mövsüm ərzində** | |
| 2 | Şirkətlərə ayrılmış çimərlik zonalarında mövsümə hazırlıq ilə əlaqədar təmizlik və abadlıq işlərini xüsusi nəzarətə götürülməsi və lazımi tədbirlər həyata keçirilməsi | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri – A.Kərimov;<br>Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-İ.Cahangir-zadə;<br>Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru – F.Hacıyev | **Mövsüm ərzində** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3** | Dəniz sahilboyunda əhalinin, qonaqların maneəsiz istirahətinin təmin edilməsi üçün şirkətlər və fiziki şəxslər tərəfindən öz aralarında sərhəd boyu çəkdikləri hasarların sahildən 20-25 metr məsafədə olmasının təmin edilməsi | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri – A.Kərimov;<br>Binəqədi Rayon MKTB-nin rəisi- E.Zamanov;<br>Binəqədi Rayon Bələdiyyəsinin sədri – M.Eminov | **Mövsüm ərzində** | |
| **4** | Çimərlik ərazisində çətirlərin oxları arasında müəyyən edilmiş ara məsafənin saxlanılması | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-İ.Cahangir-zadə; | **Mövsüm ərzində** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **5** | Çimərlik ərazisində taxtların müəyyən edilmiş ara məsafənin saxlanılması | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-İ.Cahangir-zadə; | **Mövsüm ərzində** | |
| 6 | Çimərliklərdəki sanitar qovşaqlar, soyunub-geyinmə yerləri, hovuz və akvaparkların əraziləri əl dezinfektantları üçün nəzərdə tutulmuş dispenserlər ilə təmin edilməsi və yanına maarifləndirici posterlər vurulması | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-İ.Cahangir-zadə; | **Mövsüm ərzində** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **7** | Çimərlik ərazisində əvvəlcədən razılaşdırılmış ölçü və dizayna uyğun məlumat lövhələri | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-İ.Cahangir-zadə; | **Mövsüm ərzində** | |
| **8** | Çimərlik ərazisində məişət tullantıları üçün müvafiq yerin və konteynerlərin ayrılması | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-İ.Cahangir-zadə;<br>Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri –R.Həsənov;<br>Binəqədi Rayon Bələdiyyəsinin sədri – M.Eminov | **Mövsüm ərzində** | |
| **9** | Çimərlik ərazilərində və sahilyanı zonalarda ödənişsiz girişin təşkil edilməsi | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-İ.Cahangir-zadə;<br>Binəqədi Rayon Bələdiyyəsinin sədri – M.Eminov | **Mövsüm ərzində** | |
| **10** | Çimərlik ərazilərində pulsuz avtodayanacağın təşkil edilməsi | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-İ.Cahangir-zadə;<br>Binəqədi Rayon Bələdiyyəsinin sədri – M.Eminov | **Mövsüm ərzində** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 11 | Mövsüm ərzində əhalinin asudə vaxtının əyləncəli keçirilməsi və səmərəli istirahəti məqsədi ilə silsilə tədbirlərin keçirilməsi | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri- N.Allahverdiyev; | **Mövsüm ərzində** | |
| 12 | Mövsüm ərzində çimərliklərdə təcili tibbi yardım məntəqələrinin təşkil edilməsi | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri- N.Allahverdiyev;<br>16 saylı Təxirəsalınmaz Təcili Tibbi Yardım Stansiyasının baş həkimi - Büllur Tağıyeva | **Mövsüm ərzində** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 13 | "Sanitar-epidemioloji sağlamlıq haqqında" qanuna uyğun olaraq, çimərliklərdə sanitar-gigiyena qaydalarına ciddi nəzarətin təmin edilməsi | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-İ.Cahangir-zadə;<br>Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru – F.Hacıyev | **Mövsüm ərzində** | |
| 14 | Çimərliklərin ərazisində ictimai asayişin qorunmasının təmin edilməsi | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Hüquq şöbəsinin müdiri vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən məsləhətçi-V.Eyvazova;<br>Binəqədi Rayon Polis İdarəsinin rəisi –İ.Məmmədov | **Mövsüm ərzində** | |
| 15 | Təhlükəli yerlərdə fəaliyyət göstərən çimərlik ərazilərini müəyyən edərək lövhələrin quraşdırılması | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon Bələdiyyəsinin sədri – M.Eminov;<br>Binəqədi Rayon Fövqəladə Hallar və Mülki Müdafiə Şöbəsinin rəisi-İ.Məmmədov<br>Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru – F.Hacıyev | **Mövsüm ərzində** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **16** | Sahilyanı zonaların təmiz saxlanılması və tullantıların vaxtlı-vaxtında daşınmasını təmin etmək məqsədilə sahilyanı iaşə obyektləri ilə muvafiq müqavilələrin bağlanması | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri – A.Kərimov; Binəqədi Rayon Bələdiyyəsinin sədri – M.Eminov | **Mövsüm ərzində** | |
| **17** | Çimərlik haqqında lövhələrin quraşdırılmasını təmin edilməsi | Novxanı, Goradil, Fatmai dəniz çimərlikləri | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-İ.Cahangir-zadə; Binəqədi Rayon Bələdiyyəsinin sədri – M.Eminov | **Mövsüm ərzində** | |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** **Hacıbaba Babayev**

**Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri** **İskəndər Cahangir-zadə**